# MİLLİ KİTABXANANIN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ – GƏLƏCƏYİN ÇAĞIRIŞLARI

**Kərim Tahirov**
*M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru,*
*Əməkdar mədəniyyət işçisi, professor*
ktahirov@anl.az

***Milli Kitabxananın inkişafının əsas istiqamətləri – gələcəyin çağırışları***
***Xülasə:*** *Məqalədə kitabxana fondlarının zənginləşdirilməsində ulu öndər Heydər Əliyevin əvəzedilməz xidmətlərindən, bu sahədə onun siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı qanun və digər normativ hüquqi sənədlərdən, həmçinin pandemiya dövründə oxucuların informasiya təminatında Milli Kitabxananın onlayn xidmətlərinin fəaliyyətindən bəhs edilir.*
***Основные направления развития Национальной Библиотеки – призывы будущего***
***Резюме:*** *В статье рассказывается о неоценимых заслугах великого лидера Гейдара Алиева в обогащении книжных фондов библиотек, о законах и других нормативно-правовых документах, подписанных в этой области Президентом Азербайджанской Республики господином Ильхамом Алиевым, успешно продолжающим его политику, об опыте работы Национальной Библиотеки и деятельности онлайн-услуг библиотеки по информационному обеспечению читателей во время пандемии.*
***Main directions of development of the National Library – challenges of the future***
***Summary:*** *The article gives information about the invaluableservices of the National leader Heydar Aliyev in enriching book collections of libraries; the laws and other normative legal documents signed by the President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev, who successfully continues his policy in this field; the work experience of the National Library;as well as the library's online services in the information provision of readers during the pandemic.*
***Açar sözlər:*** *çap məhsullarının pulsuz məcburi nüsxələri, konvensiya, pandemiya, virtual sərgi, onlayn oxu, onlayn xidmətlər pəncərəsi*
***Ключевые слова:*** *обязательные бесплатные экземпляры печатной продукции, конвенция, пандемия, виртуальная выставка, онлайн-чтение, окно «онлайн-услуг»*
***Keywords:*** *free mandatory copies of printed products, convention, pandemic, virtual exhibition, online reading, "Online services" window*

**Giriş:** Ulu Öndər Heydər Əliyev 1996-cı ildə Milli Kitabxanaya gələrkən fondların yeni ədəbiyyatla komplektləşdirilməsi ilə maraqlanmış və qeyri-qənaətbəxş cavab aldıqdan sonra demişdir: "Milli Kitabxana elə bir yerdir ki, onun fondları daim yeniləşməlidir, yeni-yeni kitablarla daim zənginləşməlidir". Ulu Öndərin bu dahiyanə fikri Milli Kitabxananın fondlarının daim zənginləşməsinin vacibliyini bir daha təsdiq edir. Böyük uzaqgörənliklə söylən-

miş bu qiymətli ideyanı Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində Milli Kitabxananın fondu daim zənginləşir və inkişaf edir. Təkcə 2019-cu il ərzində cənab Prezident kitabxanaların kitab fondlarının zənginləşdirilməsi ilə əlaqədar 1 qanun və 1 fərman imzalamışdır və cənab Prezidentin göstərişi ilə Nazirlər Kabineti bu məsələ ilə əlaqədar 3 qərar qəbul etmişdir.

Bu qanun, fərman, qərar və sərəncamlar kitabxanaların yeni nəşr məhsulları ilə təchizatını qanunvericilik qaydasında təsbit edən "Kitabxana işi haqqında" və "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikası qanunlarının müvafiq maddələrinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasını təmin etməyə yönəlmişdir və dünya təcrübəsində ilk dəfə olaraq Milli Kitabxananın elektron resurslar fondunun yeni çap olunan nəşr məhsullarının elektron versiyasının məcburi nüsxələri ilə təmin olunmasını qanunvericilik qaydasında təsdiq etmişdir. Bu normativ hüquqi aktlar ölkə ərazisində və ölkədən kənarda ölkə nəşriyyatları, müəssisələri tərəfindən çap olunan nəşr məhsullarının pulsuz məcburi nüsxələrinin Milli Kitabxanaya verilməsinin yeni qaydalarının müəyyən olunmasına yönəlmişdir.

**Məsələnin qoyuluşu:** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 sentyabr 2019-cu il tarixli qərarı ilə təsdiq olunmuş "Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydaları"-da respublika ərazisində çap olunan və eləcə də ölkə ərazisində fəaliyyət göstərən nəşriyyatlar tərəfindən ölkədən kənarda nəşr olunan çap məhsullarının pulsuz məcburi nüsxələrinin milli və respublika əhəmiyyətli kitabxanalara göndərilməsi qaydaları müəyyən olunmuşdur. Bu normativ aktlara müvafiq olaraq Milli Kitabxananın strukturunda "Nəşriyyatlarla və məcburi nüsxələrlə iş bölməsi" yaradılmışdır və respublika ərazisində tətbiq olunan karantin rejimi ləğv olunduqdan sonra nəşriyyatlarla bu istiqamətdə müvafiq iş aparılacaqdır. İnanırıq ki, cənab Prezidentin və Nazirlər Kabinetinin təsdiq etdiyi bu sənədlər kitabxanaların, xüsusilə Milli Kitabxananın nəşr məhsullarının məcburi nüsxələri və onların elektron nüsxələri ilə təchizatına, Respublika Çap məhsullarının Arxiv Fondunun zənginləşdirilməsinə müsbət təsirini göstərəcəkdir.

Xarici ölkə kitabxanaları ilə kitab mübadiləsinin vəziyyətindən danışarkən Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında ötən ilin dekabrında Milli Məclisə təqdim etdiyi və 05 may 2020-ci il tarixində yeni Milli Məclis tərəfindən təsdiq olunan "Nəşr məhsullarının beynəlxalq mübadiləsinin həyata keçirilməsi haqqında" UNESKO-nun 3 dekabr 1958-ci ildə qəbul etdiyi Konvensiyaya Azərbaycan Respublikasının qoşulmasına dair qərar isə Milli Kitabxananın beynəlxalq kitab mübadiləsi işlərinin genişləndirilməsinə böyük imkanlar açacaqdır və onun fondlarının xarici ölkələrdə çap olunan nəşr məhsulları ilə təmin olunmasında əhəmiyyətli rol oynayacaqdır. Hazırda kitabxanamız dünyanın 60-dan artıq milli və universitet kitabxanaları ilə fəal kitab mübadiləsi həyata keçirir və cənab Prezidentin Milli Məclisə təqdim etdiyi bu sənəd qarşımızda geniş imkanlar açmaqla yanaşı,

gömrük və poçtdaşımaları ilə bağlı hazırda mövcud olan bir sıra maneələrin aradan qaldırılmasını təmin edəcəkdir.

**Məsələnin izahı:** Bir vaxtlar kitabxanalarımız ölkə ərazisində çap olunan bütün nəşr məhsullarını ala bilirdilər və bu işi planlı şəkildə müəyyən qurumlar həyata keçirirdilər. Ancaq ötən əsrin 80-ci illərinin sonunda bu mexanizm dağıldı, təəssüf ki, yerində yeni bir qurum yaradılmadı və beləliklə kitabxanalarımızın kitabla təchizatı sistemi tamamilə dağılmış oldu. Baxmayaraq ki, həmin əsrin 90-cı illərinin ortalarında müstəqil Azərbaycan Dövlətinin memarı və qurucusu, Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə bu məsələ ilə bağlı bir sıra qanunlar və digər normativ hüquqi sənədlər qəbul olunsa da, onlar bugünədək demək olar ki, tam şəkildə icra olunmur. Bir daha Ulu Öndərin 1996-cı ildə Milli Kitabxanaya gələrkən uzaqgörənliklə söylədiyi bir fikrə yenidən qayıtmaq istərdim. Ulu Öndər demişdir: ”...kitabxana elə bir müəssisədir ki, gərək o daim inkişaf etsin, yeni-yeni nəşrlərlə zənginləşsin. Dünya dəyişir, hər şey inkişaf edir, yeni-yeni kitablar nəşr olunur, gərək onlar kitabxanamıza daxil olsun, oxuculara çatdırılsın. Mən bütün ictimaiyyəti bu işdə iştirak etməyə dəvət edirəm, hamını öz kitablarını bu kitabxanaya verməyə çağırıram”. Çox təəssüf ki, Ulu Öndərin çox böyük uzaqgörənliklə söylədiyi fikirlər bu gün hamı tərəfindən icra olunmur. Siz təsəvvür edə bilməzsiniz ki, bu gün çap olunan nəşr məhsullarının yalnız 65-70 faizi Milli Kitabxanada yaradılan Azərbaycan Nəşr Məhsullarının Arxiv Fondunda toplanır! Bu, əlbəttə fəlakətdir! Ancaq inanırıq ki, son 2 il ərzində Azərbaycan Dövlətinin, hörmətli cənab Prezidentimiz İlham Əliyevin bu istiqamətdə atdığı çox ciddi addımlar tezliklə öz bəhrəsini verəcəkdir və bu sahədəki qanunlara ciddi əməl olunacaqdır. Milli Kitabxanalar, onların fondlarında mühafizə olunan qiymətli materiallar xalqların milli mənəvi sərvətidir, milli mənəvi yaddaşıdır və buna görə də onların etibarlı şəkildə qorunub saxlanması və gələcək nəsillərə çatdırılması bizim tarixi missiyamızdır. Biz Milli Kitabxana olaraq bu şərəfli vəzifənin öhdəsindən gəlmək üçün əlimizdən gələni etməyə çalışırıq. Kitabxanamızda həm Nadir kitablar fondu, həm də Azərbaycan Kitabiyyatının Milli Arxiv Fondu mühafizə olunur və kollektivimizin hər bir üzvü xalqımıza mənsub olan bu milli sərvəti göz bəbəyi kimi qoruyub saxlamağa çalışır. Həm Arxiv Fondu və həm də Nadir kitablar fondu gözəl şəraiti olan və müasir dövrün tələblərinə uyğun olaraq hər cür mühafizə imkanlarına malik olan fond saxlancları ilə təmin olunmuşdur. Burada müasir tipli işıqlandırma, tozdan, günəş işığından və rütubətdən etibarlı mühafizəni təmin edən, qazla yanğından mühafizə sistemləri quraşdırılmışdır.

Nadir kitablar fondu üçün kitablar bu sahədə böyük təcrübəyə malik olan mütəxəssis kitabxanaçılar tərəfindən seçilərək bu fonda daxil edilir. Fondun formalaşmasında oxucuların da böyük əməyi olur. Bu fonda müxtəlif nadir kolleksiyalar daxil edilmişdir. 1996-cı ildə Ulu Öndər Heydər Əliyev Milli Kitabxanaya gələrkən öz şəxsi kitabxanasından kitabxanaya bağışladığı 300 nüsxəyədək kitab hazırda bu fondda çox qiymətli kolleksiya kimi mühafizə olunur. Hal-hazırda həmin kitabları, qızıl fondda kolleksiya olaraq saxlayarıq.

Nadir kitablar və kitabxana muzeyində tarixi əhəmiyyətli, nəşr tarixi baxımından qiymətli, nəfis tərtib edilmiş nəşrləri toplayaraq mühafizə edirik.

Təbii ki, ölkəmizdə mövcud olan 10 minə yaxın kitabxananın hamısının vəziyyəti qənaətbəxş deyildir və günün tələblərinə cavab vermir. Məhz bu səbəbdən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə kitabxanaların strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında fərmanı ölkədə kitabxana sisteminin tamamilə yenidən qurulmasına və onların fəaliyyətinin optimallaşdırılmasına yönələn tədbirlərin görülməsinə istiqamətlənmişdir və inanırıq ki, tabeçiliyində kitabxanalar olan strukturların cənab Prezidentə təqdim etdiyi təkilflər paketinin yaxın aylarda təsdiq olunması kitabxanalarımızın fəaliyyətində əsaslı dönüş yaradacaqdır. Ölkəmizdə kitabxanaların idarəedilməsinin tamamilə yeni bir sisteminin yaradılması mədəniyyətə dönüşə, kitaba və mənəviyyata qayıdışa böyük təkan olacaqdır.

Hal-hazırda Milli Kitabxanada oxuculara kitabxana xidmətinin təşkili ilə əlaqədar bütün iş prosesləri avtomatlaşdırılmışdır: oxucuların qeydiyyatı, kitabxanaya daxil olması, kitabın axtarışı və sifarişi, ədəbiyyatın oxuculara verilməsi və qaytarılması prosesləri, kitabların qanunsuz olaraq kitabxanadan çıxarılmasının qarşısının alınması, yeni daxil olan ədəbiyyat haqqında oxuculara operativ informasiyanın verilməsi, kitabxanaya gəlmək istəyən oxucular tərəfindən əvvəlcədən virtual sifarişlərin verilməsi və s. proseslər. Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması istiqamətində aparılan tədbirlər nəticəsində oxuculara xidmət işinin müasir növləri tətbiq edilir. Son illər ərzində elektron kataloqla Elektron kitabxananın birləşdirilməsi prosesi həyata keçirilmişdir ki, bu zaman oxucu artıq elektron kataloqda axtarış apararaq tapdığı kitabı bilavasitə elektron kitabxnaya dönmədən elə axtarış modulunda “Onlayn oxu” düyməsi vasitəsilə yerindəcə açıb oxuya bilir. Bu da xeyli vaxt itkisinin qarşısını alır.

Milli Kitabxananın saytı vasitəsilə bu gün oxucularımıza bir sıra virtual xidmətləri özündə birləşdirən onlayn xidmətlər kompleksi təqdim olunur ki, onların içərisində “Onlayn biblioqrafik sorğu”, “Ədəbiyyatın onlayn sifarişi və elektron çatdırılması”, “Virtual sərgilər”,“Onlayn metodik xidmət” və s. göstərmək olar. Oxucu sorğularının ödənilməsində elektron kataloq və elektron kitabxana aparıcı rol oynayır.Elektron kataloq ənənəvi kataloqdan axtarışın müxtəlifliyinə görə fərqlənir və elektron kataloq ədəbiyyat fondu haqqında ənənəvi kataloqdan daha dolğun biblioqrafik məlumata malik olduğundan, oxucuya çoxelementli və çoxsəviyyəli axtarış imkanları təklif edirik. Digər tərəfdən, oxucu elektron kataloq vasitəsilə uzaq məsafədən ədəbiyyat axtarışı apara bilir və istədiyi kitabı kitabxananın saytının “Elektron kataloq və elektron kitabxana” bölməsindəki “Onlayn oxu” düyməsi vasitəsilə sərbəst şəkildə açıb oxuya bilir. Bu mütərəqqi iş forması kitabxanamızda xeyli sayda oxucuların “istifadəçiyə” çevrilməsi ilə nəticələnmişdir. Təbii ki, istifadəçilərin sayı ənənəvi oxucuların sayından qat-qat çoxdur və bu gün onların sayı 1 millyon 500 minə yaxındır.

Koronavirus təhlükəsi ilə əlaqədar respublikada həyata keçirilən tədbirlər çərçivəsində 2020-ci il martın 11-dən Milli Kitabxana oxucular üçün müvəqqəti bağlanmışdır, lakin kitabxanamız onlayn xidmətlərin geniş çeşidinin tətbiqi sayəsində oxuculara xidmətini davam etdirmişdir. Kitabxana işçiləri məhdud sayda (4-5 nəfər) fəaliyyət göstərdikləri üçün Milli Kitabxananın onlayn xidmətləri, Elektron kataloq və Elektron kitabxana, habelə kitabxananın veb saytı oxuculara məsafədən xidməti davam etdirmişdir. Martın 11-dən bugünədək Milli Kitabxananın saytının (anl.az) Elektron kataloq və Elektron kitabxana bölməsinin "Onlayn oxu" düyməsi vasitəsilə kitab oxuyan istifadəçilərin sayı 1 milyon 500 min nəfər, bütövlükdə saytımıza isə 2 milyon 200 nəfər giriş olmuşdur. Bu dövr ərzində Kitabxananın yeni yaradılan "Onlayn xidmətlər pəncərəsi" vasitəsilə 6739 oxucuya 10364 kitabın və 18039 məqalənin pdf. variantı göndərilmiş, onlara 713 biblioqrafik məsləhət verilmişdir. Bunlardan Milli Kitabxananın elektron resurslar fondunda olmayan 450 kitabın və 1586 məqalənin bilavasitə kitabxanada işçilər tərəfindən rəqəmsallaşdırılaraq oxusulara göndərilməsi təmin olunmuşdur. Göründüyü kimi, Milli Kitabxana bu çətin dövrdə də oxucularının yanında olmuşdur və onların evdə qalaraq elmi tədqiqatla və aktiv mütaliə ilə məşğul olmalarına yardımçı olmuşdur.

Karantin rejimi dövründə yaranan çox çətin vəziyyət Kitabxanamızin onlayn xidmətlərinin fəaliyyətinin xeyli güclənməsi və təkmilləşməsi ilə nəticələnmişdir. Belə ki, Milli Kitabxana istifadəçilərin ədəbiyyata olan konkret sorğularının ödənilməsi ilə yanaşı, digər onlayn xidmətlərini də təqdim etmişdir. Bir qayda olaraq Milli Kitabxanada əlamətdar və tarixi günlərə və görkəmli şəxsiyyətlərə həsr olunmuş kitab sərgiləri, müxtəlif mövzulara dair hazırlanmış Elektron məlumat bazaları virtual kitab sərgiləri və elektron məlumat bazalarının virtual təqdimatı ilə əvəz olunmuşdur. Müvafiq dövrdə kitabxanamız tərəfindən 30-dan artıq virtual sərgi və elektron məlumat bazası müxtəlif saytlar və sosial şəbəkələr vasitəsilə oxuculara təqdim olunmuşdur.

Milli Kitabxana karantin rejimi dövründə mütəmadi olaraq fəal metodik tövsiyələr verdiyi kitabxanaları və kitabxanaçılarımızı da yaddan çıxarmayaraq onlara da virtual rejimdə xidmət göstərməyə başlamışdır. Koronavirus təhlükəsi dövründə Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan 6 metodik tövsiyə onlayn rejimdə müxtəlif saytlar və sosial şəbəkələr vasitəsilə kitabxanaların və kitabxanaçılarımızın istifadəsinə təqdim olunmuşdur. Hazırda bu işlər kitabxanamızın əməkdaşları tərəfindən böyük uğurla davam etdirilir.

Ümumiyyətlə, bu günün kitabxanaçısı müasir informasiya texnologiyaları ilə işləməyi bacarmalıdır. Buna görə də Milli Kitabxana kadrların seçilməsi, ixtisaslarının artırılması ilə daha çox məşğul olur. Bir sıra beynəlxalq kitabxana təşkilatlarının toplantı və tədbirlərində, simpozium və treninqlərdə iştirak edir və gənc kadrlar üçün treninqlər təşkil edirik.Bu məqsədlə Kitabxanamızda xüsusi Treninq Mərkəzi fəaliyyət göstərir və mütəmadi olaraq burada müxtəlif kompüter proqramlarının, avtomatlaşdırılmış rejimdə müxtəlif iş proseslərinin öyrədilməsi, kompüter vərdişlərinə yiyələnməsi məsələləri üzrə treninqlər keçirilir.

Milli Kitabxana respublikamızın kitabxana işçiləri üçün də mütəmadi olaraq treninqlər keçirilməsini təmin edir. Son treninqlərimiz Mədəniyyət Nazirliyinin göstərişinə əsasən rayon və şəhər Mərkəzi kitabxanalarının İnformasiya-Resurs Mərkəzlərinin əməkdaşları üçün mart ayının əvvəlində keçirilmişdir. Çox təəssüf ki, pandemiya təhlükəsi səbəbindən yarımçıq qalan bu treninqlər Sumqayıt, Abşeron, Xızı, Zəngilan, Qubadlı və Şuşa Mərkəzi Kitabxanalarının əməkdaşları üçün "Corel Draw", "Photoshop", "Pinnacle Studio", "Movavi Video Suite" proqramlarının tədrisi məqsədilə təşkil olunmuşdur. Eyni zamanda bu proqramlar yerlərdəki kitabxanalarda kompüterlərə köçürülmüşdür. Kitabxanamızın ayrı-ayrı şöbələrinin əməkdaşları üçün də müxtəlif mövzular üzrə müvafiq treninqlər təşkil olunur və həmin treninqlərə xarici kitabxanalardan da mütəxəssis-trenerlər dəvət olunurlar.

Kitabxanamız BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin, Azərbaycan Dillər Universitetinin tələbələri üçün təcrübə bazası rolunu yerinə yetirir.

1998-ci ildən başlayaraq müxtəlif ictimai təşkilatlardan qrantlar alaraq müəyyən işlər görürdük. Məsələn, 2000-ci ildə Avrasiya və Soros fondlarının qrant layihələri əsasında Milli Kitabxanada elektron kataloqun və elektron kitabxananın təşkili üzrə müəyyən işlər görülmüşdür. Lakin bu gün Kitabxanamızda avtomatlaşdırma, elektronlaşdırma, rəqəmsallaşdırma, yenidənqurma və modernləşdirmə sahəsində həyata keçirilən çoxsaylı layihələr yalnız Azərbaycan Dövlətinin və Azərbaycan Respublikası Prezidentinin dəstəyi ilə həyata keçirilir. Ayrı-ayrı konkret layihələr Mədəniyyət Nazirliyi ilə birlikdə və onun dəstəyi ilə reallaşdırılır. Belə layihələrə misal olaraq Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyi ilə birgə həyata keçirdiyimiz "Milli mənəvi dəyərlərimizin Vətənə qayıdışı" layihəsini xüsusilə qeyd etmək lazımdır. Ötən il bu layihə üzrə dünyanın 17 böyük kitabxanasından mütəfəkkir şairimiz İmadəddin Nəsiminin dünya kitabxanalarında saxlanılan 31 nadir əlyazmasının diqital və çap surətlərinin Azərbaycana gətirilməsi təmin olunmuşdur. Bu sırada Nazirliklə birgə həyata keçirdiyimiz "Bərpanəşr" layihəsini, dünyada tamamilə yeni bir iş forması olan həftənin 7 günü 24 saat fəaliyyət göstərən və dünyada analoqu olmayan "Açıq Kitabxana" layihəsini, Azərbaycan musiqisinin dünyaya tanıdılması məqsədilə musiqi nümunələrimizin "Petrucci Music library" Dünya Musiqi Kitabxanası saytında yerləşdirilməsinə xidmət edən "Milli musiqimizin dünyaya tanıdılması" layihəsini, Milli Kitabxananın fondunda mühafizə olunan nadir not nəşrlərinin və səs yazılarının, qrammofon vallarının yenidən nəşri layihəsini və digər layihələri göstərmək olar.

Bu gün həyatımız sürətlə dəyişir, innovativ metodların kitabxana sistemində tətbiqi də qaçılmaz olur. Daim öyrənmək, yenilikləri mənimsəmək... Bu mənada kitabxana əməkdaşlarının yaradıcı fəaliyyəti də önəmlidir. Milli Kitabxana Avropa Milli Kitabxanaları Konfransı təşkilatının, Avrasiya Kitabxanalar Assambleyası, Türkdilli Ölkələrin Milli Kitabxanaları Şurası kimi beynəlxalq təşkilatların üzvüdür və həmin təşkilatın reallaşdırdığı müxtəlif layihələrdə də fəal iştirak edir.

Müasir dövr həyatımızın bütün sahələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə elektron xidmətlərin göstərilməsi, kompüter texnologiyasının, online xidmətlərin daha böyük əhəmiyyət kəsb etməsi ilə xarakterizə olunur. Kitabxanamız da bütün bunları nəzərə alaraq istifadəçilərin tələbatına uyğun olaraq innovativ və kreativ iş formalarının öyrənilməsinə və tətbiqinə böyük önəm verərək bu sahədəki beynəlxalq təcrübənin kitabxanamızın təcrübəsinə tətbiqinə ciddi çalışır. Əlbəttə ki, kitabxanamızın əməkdaşlarının innovasiyalara və kreativ düşüncələrə uyğunlaşaraq daima oxuculara xidmət işini təkmilləşdirməyə çalışması buna əyani nümunədir.

Bu gün Azərbaycan Dövləti tərəfindən, Pespublikamızın Prezidenti tərəfindən Milli Kitabxananın əməkdaşlarına çox böyük qayğı və diqqət göstərilir. Bu qayğının nəticəsi göz qabağındadır: Milli Kitabxanada əməkdaşların normal işləyib fəaliyyət göstərmələri üçün çox gözəl şərait yaradılmışdır, kitabxanamızda demək olar ki, bütün iş prosesləri avtomatlaşdırılmışdır, qışda soyuqdan və yayda istidən əziyyət çəkən fond saxlanclarımızda hər cür şəraiti olan, germetik bağlanan mobil kitab rəfləri ilə təmin olunmuş yaruslar yaradılmışdır, bütün kitabxananın istilik və işıqlandırma sistemləri yenidən qurulmuş, iş prosesləri tamamilə kompüterləşdirilmişdir.

**Nəticə:** Əməkdaşlarımızın əməyi hörmətli cənab Prezidentimiz tərəfindən layiqincə stimullaşdırılmışdır və onların əmək haqqılarına lazımi əlavələr müəyyən olunmuşdur ki, bütün bunlar bizim kollektivin bütün üzvlərini var gücü ilə işləməyə ruhlandırır. Kitabxanaçı əməyinə gəldikdə isə, əgər kitabxa-naçı öz əməyi ilə hər bir oxucunu sevindirirsə və onun axtardığı kitabları tapmaqda ona kömək edə bilirsə və bunun sevincini yaşayırsa, kitabxanaçıya bundan böyük mükafat ola bilməz! Amma cənab Prezidentimiz də kitabxanaçı əməyini yüksək qiymətləndirir: belə ki, 2013-cü ildə Milli Kitabxananın 90 illik yubileyinin keçirilməsi barədə xüsusi sərəncam imzalamışdır, kitabxanamızın yubileyində və digər vaxtlarda əməkdaşlarımızın xeyli hissəsi ölkəmizin yüksək fəxri adlarına layiq görülmüş, orden və medallarla təltif olunmuşlar. Bu da bizi var gücümüzlə işləməyə və xalqımıza xidmət etməyə həmişə ruhlandırır!

**Ədəbiyyat**


1. “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanunu.- Kitabxana işinə dair rəsmi sənədlər: (Qanun və qanun qüvvəli normativ hüquqi sənədlər toplusu) /tərt. K.Tahirov.-3-cü təkmil. nəşri.-Bakı, Azərbaycan Milli Kitabxanası, 2015.-40-53.
2. “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə ” Azərbaycan Respublikasının Qanunu: 19 fevral 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmışdır.- Azərbaycan, 20 mart 2019-cu il.
3. “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədəAzərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1506-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 19 mart 2019-cu il tarixli Fərmanı.

4. ”Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında”Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli Sərəncamı.
5. “Nəşr məhsullarının beynəlxalq mübadiləsinin həyata keçirilməsi haqqında” UNESKO-nun 3 dekabr 1958-ci ildə qəbul etdiyi Konvensiyaya Azərbaycan Respublikasının qoşulmasına dair Azərbaycan Respublikasının Milli Məclisinin 05 may 2020-ci il tarixli qərarı.
6. “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1506-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 mart tarixli 593 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 mart 2019-cu il tarixli qərarı.
7. ”Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydası”-nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 sentyabr 2019-cu il tarixli qərarı.
8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 sentyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş ”Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydası”nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 mart 2020-ci il tarixli qərarı.
9. Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.- Bakı, Azərnəşr.-2006.-312 s.
10. Tahirov K. Dünya milli kitabxanaları/M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: Dərs vəsaiti.-Bakı, “Bakı Universiteti” nəşriyyatı,2013.- 212 s.

**Rəyçi: t.ü.e.dok.,prof. X.İ.İsmayılov**